AZERBAIJAN

# Olimpiya dünyası

www.olimpiyadunyasi.com

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti*

*№ 34 (1494), 19 - 25 oktyabr 2021-ci il*

*Qəzet 2001-ci ildən çıxır.*



## BP şirkətinin Milli Olimpiya və Paralimpiya komitələri ilə əməkdaşlığının on illik yubileyinə həsr edilmiş tədbir keçirilib

Oktyabrın 12-də Milli Olimpiya Komitəsinin (MOK) inzibati binasında BP şirkətinin MOK və Azərbaycan Milli Paralimpiya Komitəsi (AMPK) ilə əməkdaşlığının 10 illik yubileyinə həsr edilmiş tədbir keçirilib. Tədbirdə MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə, AMPK-nın prezidenti İlqar Rəhimov, MOK-un baş katıbinin müavini Azər Əliyev, BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Cons, olimpiyaçılar və paralimpiyaçılar iştirak ediblər.

Tədbirdə çıxış edən Çingiz Hüseynzadə dünyanın ən böyük enerji təchizatçılarından olan BP şirkəti ilə əməkdaşlığın Londonun ev sahibliyi etdiyi XXX Yay Olimpiya və XIV Yay Paralimpiya Oyunları ərəfəsində başladığını bildirib. Diqqətə çatdırılıb ki, ötən 10 il BP şirkətinin təkcə Olimpiya və Paralimpiya komitələri, həmçinin olimpiyaçı və paralimpiyaçılar üçün sponsorluğu ilə deyil, həm də bir sıra mühüm əməkdaşlıq layihələri ilə diqqəti cəlb edir: "BP şirkəti ilə əməkdaşlıq yüksək səviyyədə davam edir. Ümid edirik ki, bu əməkdaşlıq bundan sonra daha da güclənəcək. Qabaqcıl idmançılarımız BP-nin təqaüdlərini alırlar. Bu əməkdaşlıq təkcə BP ilə MOK arasında deyil, həm də ölkələrimiz arasında davam edir".

Çingiz Hüseynzadə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində Azərbaycan Ordusunun qazandığı tarixi qələbədən ruhlanan idmançılarımızın Tokio Yay Olimpiya və Paralimpiya oyunlarında yüksək nəticələr qazandıqlarını vurğulayıb.

AMPK-nın prezidenti İlham Rəhimov BP şirkəti ilə on ildən artıq müddətdə əməkdaşlıq çərçivəsində bir sıra layihələrin həyata keçirildiyini bildirib. Azərbaycan dövlətinin ölkəmizdə Paralimpiya Hərəkatının inkişafına ən yüksək səviyyədə diqqət və qayğı göstərdiyini vurğulayan İlqar Rəhimov biznes qurumlarının komitənin layihələrində yaxından iştirak edərək idmanın inkişafına dəstək verməl追 önəmini vurğulayıb.

BP şirkətinin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Qəri Cons bildirib ki, səfir idmançılara dəstək göstərmək və onların Azərbaycan uğrunda necə yarışdıqlarının şahidi olmaq bizim üçün şərəf idi.

Tokio-2020 Yay Olimpiya Oyunlarının gümüş mükafatçısı Hacı Əliyev, Pekin-2008 Yay Paralimpiya Oyunlarının qızıl medalçısı Oloxan Musayev tədbirdə çıxış edərək pandemiya dövrünün çətinliklərinə baxmayaraq, Azərbaycan komandasının Olimpiya və Paralimpiya oyunlarında qazandıqları uğurlardan bəhs ediblər. BP Azərbaycan şirkəti MOK və AMPK ilə əməkdaşlığının 10 illik yubileyi münasibətilə idman ictimaiyyətinin nümayəndələrinə, olimpiyaçılara və paralimpiyaçılara xüsusi hədiyyələr təqdim edilib. MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə BP Azərbaycan şirkətinin rəhbəri Qəri Consa Olimpiya mükafatçılarımızın imzası ilə Olimpiya köynəyi hədiyyə edib.

Tədbirin sonunda xatirə fotosu çəkilib.

## Cüdoçularımız "Böyük dəbilqə" turnirini 2 medalla başa vurdular

Oktyabrın 16-17-də Fransanın paytaxtı Parisdə cüdo üzrə "Böyük dəbilqə" turniri keçirilib. 46 ölkədən 281 (164 kişi, 117 qadın) cüdoçunun iştirak etdiyi yarışda Azərbaycan idmançıları da qüvvələrini sınayıblar. Komandamız yarışda 9 (8 kişi, 1 qadın) idmançı ilə təmsil olunub.

İlk yarış günündə 60 kq çəki dərəcəsində mübarizəyə başlayan Balabəy Ağayev fransalı Jolan Florimont və yaponiyalı Genki Koqaya qalib gələrək yarımfinala yüksəlib. Bu mərhələdə monqolustanlı Sumiyabazar Enxtaivana şans verməyən cüdoçumuz finala vəsiqəni təmin edib. Balabəy Ağayev həlledici qarşılaşmada rusiyalı Ramazan Abdulayevlə üz-üzə gəlib. Rəqibini ipponla məğlub edən idmançımız mötəbər yarışın qızıl medalına sahib olub.



Balabəy Ağayevin bu qələbəsi Azərbaycan cüdosu tarixində bir ilk olub. Belə ki, Paris turniri "Böyük dəbilqə" adlandırıldığı 2009-cu ildən bu yana ölkəmizin təmsilçiləri bu yarışda qalib ola bilməmişdilər.

Digər cüdoçumuz Hidayət Heydərov (73 kq) Fransa təmsilçisi Enzo Gibellidə, ardınca almaniyalı Aleksandr Qablerdən üstün olub. O, dörddəbir finalda tacikistanlı Somon Mahmadbekovla bacara bilməyib. Təsəlliverici görüşdə rusiyalı Denis Yartsevi üstələyən təmsilçimiz üçüncü yer uğrunda görüşdə yerli idmançı Giyom Şen ilə üz-üzə gəlib. Hidayət Heydərov rəqibini ipponla məğlub edib və nüfuzlu yarışın bürünc medalına layiq görülüb.

Beləliklə, Azərbaycan cüdoçuları Böyük Dəbilqəni 1 qızıl, 1 bürünc medalla 4-cü yerdə başa vurublar.

## Pekin-2022-nin məşəli alovlandırılıb



Qədim Olimpiya Oyunlarının vətəni Yunanıstanda Pekin Qış Olimpiadasının məşəli alovlandırılıb. Məşəli daşıyan ilk idmançı yunanıstanlı xizəkçi Yannis İoannis Antoniou olub. Məşəl estafeti bir gün davam edəcək. Belə ki, oktyabrın 19-da tarixi "Panatinaikos" stadionunda məşəl Çin nümayəndələrinə təhvil veriləcək. Estafet Pekin Olimpiadasının açılış günü - fevralın 4-də başa çatacaq. Qeyd edək ki, Pekin Qış Olimpiya Oyunları fevralın 4-dən 20-dək keçiriləcək.

*İdman dünyasındakı maraqlı və operativ xəbərləri gündəlik*

**olimpiyadunyasi.com** *onlayn qəzetindən oxuyun*




### *Füzuli rayonunun işğaldan azad olunması münasibətilə keçirilən yoldaşlıq görüşü 4:4 hesabı ilə başa çatdı*

Səh. 3

### *Unudulmayan sənətkarlarımızın idmanla bağlı maraqlı xatirələri*

Səh. 4

**Avropa Konfrans Liqası** — **H qrupu**

## "Qarabağ" - Kayrat

(Azərbaycan) (Qazaxıstan)

*21 oktyabr, "Tofiq Bəhramov" adına Respublika Stadionu, Bakı. Saat 20:45.*



# Gənclər və idman naziri bir sıra rəsmi görüşlər keçirib, idman qurumlarının fəaliyyəti ilə tanış olub

Gənclər və idman naziri Fərid Qayıbov Rusiyanın ölkəmizdəki səfiri Mixail Boçarnikov, Rusiya İnformasiya və Mədəniyyət Mərkəzinin direktoru İrek Zinnurov, Yaponiyanın Azərbaycandakı səfiri Cuniçi Vada və səfirliyin əməkdaşları ilə görüşüb. Nazirlikdə keçirilən görüşlərdə həm Rusiya, həm də Yaponiya ilə ikitərəfli əlaqələrin əhəmiyyəti vurğulanıb, gənclər və idman sahələrində əməkdaşlıq məsələləri müzakirə edilib.

Görüşlərdə Yaponiyanın paytaxtı Tokioda keçirilən XXXII Yay Olimpiya Oyunlarının və Rusiyanın Kazan şəhərində təşkil edilmiş Birinci MDB Oyunlarının yüksək səviyyədə təşkil olunduğunu vurğulayan nazir Fərid Qayıbov hər iki yarışda Azərbaycan idmançılarının çıxışlarından danışıb.

* * *

Gənclər və idman naziri Fərid Qayıbov UNICEF-in Azərbaycandakı nümayəndəsi Aleks Heykens və təşkilatın Yeniyetmə və gənclərin inkişafı departamentinin mütəxəssisi Natiq Umarovla görüşüb. Görüş zamanı əsasən, uşaq və yeniyetmələrin hüquqlarının qorunması sahəsində birgə əməkdaşlıq məsələləri müzakirə edilib.

Qonaq bildirib ki, UNICEF, Azərbaycan da daxil olmaqla, dünyanın 190 ölkəsində uşaq hüquqlarını dəstəkləyən və qoruyan qlobal liderdir.

Nazir həmçinin ABŞ-ın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Li Litzenberqer və Səfirliyin mədəniyyət məsələləri üzrə müşaviri Riçard Pinkhamla görüşüb.

Nazirlikdə keçirilən görüşdə Fərid Qayıbov qonağa ölkədəki gənclər və idman siyasətinin prioritet istiqamətləri barədə məlumat verib. Hər iki sahədə qarşılıqlı əməkdaşlıq məsələləri müzakirə edilib, ölkələr arasında əlaqələrin əhəmiyyəti vurğulanıb.

* * *

Gənclər və idman naziri Fərid Qayıbov GUAM-ın (Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat) baş katibi Altay Əfəndiyevlə görüşüb. Görüşdə bu təşkilata üzv ölkələr arasında dövlət gənclər siyasəti və idman sahəsində əməkdaşlığın mümkünlüyü məsələləri müzakirə edilib.

Fərid Qayıbov bildirib ki, beynəlxalq müstəvidə bir-birini dəstəkləyən və həmrəyik nümayiş etdirən ölkələrin gənclər sahəsində təcrübə mübadiləsi, eləcə də birgə idman təlim-məşq toplanışlarının və digər tədbirlərin təşkili bütün tərəflər üçün faydalı olacaq.

Qarşılıqlı fikir mübadiləsi şəraitində keçən görüşdə GUAM-a üzv ölkələrin gənclər siyasəti və idmana məsul dövlət qurumları arasında qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyəti qeyd edilib.

* * *

Gənclər və idman naziri Fərid Qayıbov cənub bölgəsinə səfər edib. Nazirliyin Mətbuat xidmətindən verilən məlumata görə, F.Qayıbov səfər çərçivəsində Lənkəran, Astara, Masallı, Cəlilabad və Biləsuvar Olimpiya komplekslərində olub. Nazir idman mərkəzlərində yaradılmış şəraitlə tanış olaraq, onların fəaliyyətləri ilə müxtəlif idman növləri üzrə məşq prosesləri izləyib.

O, həmçinin, Masallı şəhərində yerləşən Regional Taekvondo Mərkəzində və Regional Boks Mərkəzində, eləcə də Masallı, Lənkəran və Biləsuvar şəhərlərində fəaliyyət göstərən Gənclər Evlərində olub, bu mərkəzlərdə yaradılmış şəraitlə maraqlanıb.

Lənkəran Gənclər Evinə baxış zamanı qeyd edilib ki, Uşaq-Gənclər İdman Məktəbinin direktoru, Vətən müharibəsində şəhid olmuş Vüsal Kazımovun qəhrəmanlığı gənc nəslin təlim-tərbiyəsində əsl vətənpərvərlik nümunəsi kimi göstərilir.

Nazir həmin qurğuların gənclərə və idmançılara xidmət səviyyəsinin genişləndirilməsinin önəmini qeyd edib və bununla bağlı müvafiq tövsiyələr verib.

* * *

Gənclər və idman naziri Fərid Qayıbov Bakı Ali Neft Məktəbində (BANM) olub. Məktəbin fəaliyyəti ilə tanış olan nazir tələbə və müəllim kollektivi ilə görüşüb. BANM-ın rektoru Elmar Qasımov burada yaradılmış şərait və gənclərin təhsil uğurları barədə məlumat verib. Qeyd edib ki, məktəbdə gənclərin həm təhsil, həm də yaradıcılıq vərdişlərinə xüsusi diqqət yetirilir.

Nazir burada Azərbaycan neft-qaz sənayesi tarixini əks etdirən muzey, yeməkxana, laboratoriya, tələbə yataqxanası, kompüter otağı və Erasmus+ otağına baxıb, bakalavrların dərs prosesi ilə tanış olub.

F.Qayıbova məlumat verilib ki, ali məktəbdə bədən tərbiyəsi və idmanın inkişafı üçün hər cür şərait yaradılıb. Standartlara uyğun futbol meydançası, müxtəlif növlər üzrə idman zalları, trenajor zalı, üzgüçülük hovuzu tələbələrin istifadəsinə verilib. Nazir məktəbin təcrübəli üzgüçülük müəllimi Pyotr Kuvşinovla tələbələrin idmana, xüsusilə də su idmanı növlərinə marağı və məşğələlər barədə fikir mübadiləsi aparıb.

F.Qayıbov müxtəlif növlər üzrə idman klublarının sədrləri ilə tanış olub, tələbələrin məşq proseslərini izləyib. Burada idman dərslərinə yaradılan şəraitdən razılığını bildirən nazir buna görə məktəb rəhbərliyinə təşəkkürünü bildirib.

Sonra Fərid Qayıbov toplantı zalında məktəbin yaradıcılıq klubları sədrləri, prezident təqaüdçüləri, fəal tələbələri ilə görüşüb. Görüş zamanı tələbələlə fikir mübadiləsi aparan nazir onların gənclər, idman və yaradıcılıq mövzusunda suallarını cavablandırıb, arzu və təkliflərini dinləyib, nazirliyin qarşıya qoyduğu məqsəd və vəzifələr, görüləcək işlər barədə danışıb. O qeyd edib ki, hər bir sahədə uğur qazanmaq üçün zamana ehtiyac var. Əsas ruhdan düşməmək və milli-mənəvi dəyərləri qorumaqla inkişafa çalışmaq lazımdır.

Səmimi görüşə görə məktəbin tələbələri və pedaqoji heyəti adından təşəkkürünü bildirən rektor nazirə məktəbin xatirə hədiyyəsini təqdim edilib.

## Görkəmli ictimai-siyasi xadim Azad Rəhimovun xatirəsinə həsr olunan şahmat turniri başa çatdı

Mərhum gənclər və idman naziri, görkəmli ictimai-siyasi xadim Azad Rəhimovun xatirəsinə həsr olunmuş şahmat turnirinə yekun vurulub. Məktəblilər arasında təşkil edilən klassik turnirdə 9 rayon və şəhərdən 100-dən çox şahmatçı mübarizə aparıb.

Oğlanların yarışında ilk üç yeri Cahandar Azadəliyev, Süleyman Süleymanlı və Kamal İsfəndiyarlı tutublar. Qızlar arasında isə Aysel Rəhimova, Xanım İsmayılova və Aysel Cəfərova fərqləniblər. On iki yaşadək şahmatçılar arasında isə Rüstəm Rüstəmov qalib gəlib.



## Yaponiyada dünya çempionatı başlayıb

Dünən Yaponiyanın Kitakyuşu şəhərində idman gimnastikası üzrə dünya çempionatı start götürüb. Ölkəmizi dünya çempionatında İvan Tixonov, Samirə Qəhrəmanova və Milana Minakovskaya təmsil edirlər. Turnirdə 59 ölkədən 239 kişi və 154 qadın gimnast birincilik uğrunda mübarizə aparır. Oktyabrın 24-də yekun vurulacaq çempionatda 12 dəst medal sahibini tapacaq.

## *9 boksçumuz Belqrad sınağına hazırlaşır*

Oktyabrın 24-dən noyabrın 6-dək Serbiyanın paytaxtı Belqradda boks üzrə dünya çempionatı keçiriləcək. Mundialda Azərbaycan milli komandası da iştirak edəcək. Məşqçilər korpusu dünya çempionatında 9 boksçuya şans verəcək. Yığmamızın heyətində Məsud Yusifzadə (51 kq), Ümid Rüstəmov (57 kq), Tayfur Əliyev (60 kq), Malik Həsənov (63,5 kq), Sərxan Əliyev (71 kq), Mirşərif Kazımzadə (75 kq), Alfonso Dominqes (86 kq), Rauf Rəhimov (92 kq) və Məhəmməd Abdullayev (+92 kq) qüvvəsini sınayacaq. Oktyabrın 21-də səfərə yollanacaq komandamız təlim-məşq toplanışını son günədək davam etdirəcək. Qeyd edək ki, ilk dəfə 13 çəki dərəcəsində keçiriləcək dünya çempionatında 105 ölkədən 650 boksçunun iştirakı gözlənilir. 2,6 milyon dollar mükafatı fondu olacaq mundialda çempion 100 min dollar qazanacaq. İkinci yerin sahibi 50, üçüncü pilləni tutacaq boksçu 25 min dollar mükafat alacaq.



## Avropa kubokundan 2 medal

Xorvatiyanın Dubrovnik şəhərində cüdo üzrə Avropa kuboku yarışı keçirilib. 26 ölkədən 300-ə yaxın cüdoçunun iştirak etdiyi yarışda Azərbaycan cüdoçuları da qüvvələrini sınayıblar. Yarışda kişilərin mübarizəsində 11 cüdoçu ilə təmsil olunan komandamız Avropa kubokunu 2 medalla başa vurub. Cüdoçularımızdan 90 kq çəki dərəcəsində çıxış edən Rüfət İsmayılov yalnız həlledici final görüşündə məğlub olaraq gümüş medala sahib olub. Məhərrəm İmamverdiyev (81 kq) isə yarışı üçüncü pillədə başa vurub.



## “Federasiya kuboku” yarışına yekun vurulub

Azərbaycan Cüdo Federasiyası tərəfindən təşkil olunan növbəti yarışa yekun vurulub. Bakı klubları arasında keçirilən kişilərin və qadınların açıq “Federasiya kuboku”nda 32 komandanın tərkibində 199 cüdoçu (178 kişi, 21 qadın) medallar uğrunda mübarizə aparıb. Fövqəladə Hallar Nazirliyinin Hövsan qəsəbəsində yerləşən “Xilasedici” İdman-Sağlamlıq Mərkəzində baş tutan yarış üç gün davam edib. Yarışın keçirilməsində əsas məqsəd dekabrın əvvəlində təşkil olunacaq Azərbaycan çempionatında Bakı şəhərindən iştirak edəcək cüdoçuların müəyyən olunması idi.



Turnirdə kişilər arasında Rəhim Aslanov (60 kq), Qasım Vəlizadə (66 kq), Nahid İsmayılov (73 kq), Elcan Səfiyev (81 kq), Coşqun Abdullayev (90 kq), Elvin Əhmədli (100 kq) və Kənan Nəsibov (+100 kq) bütün görüşləri qələbə ilə başa vuraraq qalib adını qazanıblar.

Qadınların mübarizəsində Xumar Qasımzadə (48 kq), Vüsalə Hacıyeva (52 kq), Gülnarə Bayramova (57 kq), Leyla Hüseynova (63 kq), Səbirə Əliyeva (78 kq) və Qönçə Cəfərli (+78 kq) yarışın qızıl medalına sahib olublar.

Qeyd edək ki, ümumi komanda hesabında “Şahin” İK “Federasiya kuboku” yarışının qalibi olub. U-13 İOEUGİM ikinci, “Konakan” TT komandası isə üçüncü yeri tutub.

## *Olimpiya mükafatçımız dünya reytinqində liderliyə yüksəldi*

Norveçdə keçirilmiş dünya çempionatından sonra Dünya Güləş Birliyi (UWW) reytinq sıralamasını yeniləyib. Yunan-Roma güləşində Rafiq Hüseynov dünya çempionu olduğu 82 kq çəki dərəcəsində liderliyə yüksəlib. 33 yaşlı pəhləvanımız 70 xalla reytinqə başçılıq edir. R.Hüseynov ən yaxın izləyicisi Adlan Akiyevi (Rusiya) 9 xal qabaqlayır və əvvəlki siyahı ilə müqayisədə 23 pillə irəliləyib.



Güləşin bu növündə Azərbaycanın daha üç təmsilçisi ilk "10-luq"da yer alıb. 55 kq-da Eldəniz Əzizli 39 xalla ilk "3-lüy"ü qapayır. Osloda bürünc medal qazanmış güləşçi 4 pillə irəliləyib.

63 kq-da Taleh Məmmədov 6-cı mövqedən 3-cü yerə yüksəlib. Təcrübəli pəhləvanın hesabında 38 xal var.

Sənan Süleymanov isə 77 kq-da böyük sıçrayış edib. Dünya çempionatında gümüş medal əldə etmiş idmançı xal ehtiyatını 58-ə çatdırmaqla 15-ci pillədən 3-cü sıraya yüksəlib.

Sərbəst güləşdə millinin 4 üzvü öz çəkilərində ilk "10-luq"dadır. Tokio-2020 Yay Olimpiya Oyunlarında gümüş medal əldə etmiş Hacı Əliyev 65 kq-da 3-cü yerdən 6-cı pilləyə enib. Səbəb 44 xala malik titullu idmançının mundialı buraxmasıdır.

Norveçdəki yarışda medalın bir addımlığında dayanmış Turan Bayramov 70 kq-da iki həmkarını geridə qoyaraq 4-cü yerə yüksəlib. Gənc güləşçinin hesabında 38 xal var.

Abubakr Abakarov 86 kq-da böyük irəliləyişə nail olub. Hazırda 25 xalla ilk "10-luğ"u qapayan legionerin əvvəlki mövqeyi 33-cü pillə idi. Osman Nurməhəmmədov isə 92 kq-da 11-ci pilləni 3-cü yerlə əvəzləyib. Dünya üçüncüsü 39 xala malikdir.

Qadın güləşində Mariya Stadnik 50 kq-da bir pillə geriləyib. Millinin lideri 60 xalla 3-cü pillədə qərarlaşıb.

Elis Manalova isə 68 kq-da 22 xalla ilk "10-luğ"u qapayır.

Qeyd edək ki, Oslodakı dünya çempionatı 2 - 10 oktyabrda gerçəkləşib.

## *Azərbaycan idmançısı Dubayda qızıl medala sahib çıxdı*

Birləşmiş Ərəb Əmirliklərində (BƏƏ) yaşayan Azərbaycanın yeniyetmə idmançısı Qacar Mirzə Dubayda təşkil olunan "Muay Tay Gənclər Çempionatı"nın qızıl medalını qazanıb. Turnirdə ümumilikdə 5 döyüş keçirən 15 yaşlı idmançı bütün görüşlərdə müvəffəqiyyətlə çıxış edərək, rəqiblərinə qalib gəlib.

Qeyd edək ki, Qacar Mirzə 2006-cı il mayın 11-də Bakıda anadan olub. Kiçik yaşlarından idmanın üzgüçülük, güləş və taekvondo növləri ilə məşğul olan idmançı valideynlərinin işi ilə əlaqədar 10 yaşında BƏƏ-yə köçüb. Mirzə orada "Tiger kickboxing" klubuna daxil olaraq, muay tay və kikboksinq idman növləri ilə məşğul olmağa üstünlük verib. Dəfələrlə yarışlarda iştirak edən idmançı 2019-cu ildə keçirilən "Muay Tay Gənclər Çempionatında" gümüş medal qazanıb.

## Qılıncoynadanlarımız qarşıdakı yarışlara Ukraynada hazırlaşırlar

Azərbaycanın qılıncoynatma üzrə milli komandası Ukraynada təlim-məşq toplanışında iştirak edir. Yeniyetmə və gənclərdən ibarət şpaqa üzrə millimiz Xarkovda hazırlıq keçir. Dörd məşqçi və 14 idmançıdan ibarət komandamızın təlim-məşq toplanışı oktyabrın 22-dək davam edəcək. Təlim-məşq toplanışı qarşıdakı yarışlara hazırlıq xarakteri daşıyır.



## *Voleybolçumuz Yunanıstan klubuna transfer olundu*

Qadın voleybolçulardan ibarət Azərbaycan millisinin üzvü Şəfaqət Alışanova karyerasını ölkə xaricində davam etdirəcək. 30 yaşlı toppaylayıcı Yunanıstanın "Porfiras" klubu ilə müqaviləni rəsmiləşdirib. Voleybolçu ilə birillik müqavilə imzalanıb.

Ş.Alışanova artıq Yunanıstan çempionatında debüt də edib. Voleybolçumuzun komandası "Lamia"nın qonağı olub və 1:3 hesablı məğlubiyyətə üzülüb.

Qeyd edək ki, voleybolçumuz Macarıstan və Polşada da legioner həyatı yaşayıb.



## Füzuli rayonunun işğaldan azad olunması münasibətilə keçirilən yoldaşlıq görüşü 4:4 hesabı ilə başa çatdı

Oktyabrın 17-də "Sportsman" jurnalının, Dünya Narkotiklə Mübarizə Aparan İdmançılar Federasiyasının Azərbaycan Nümayəndəliyinin və ''Olimpiya dünyası'' qəzetinin birgə təşkilatçılığı ilə mini-futbol üzrə yoldaşlıq görüşü keçirildi. 17 oktyabr - Füzuli rayonunun işğaldan azad olunması münasibətilə təşkil olunan yoldaşlıq görüşündə idman mediasının nümayəndələri Vətən müharibəsində iştirak edən qazilər öz bacarıqlarını nümayiş etdirdilər. Gərgin və maraqlı keçən qarşılaşma 4:4 hesabı ilə başa çatdı.



Yarışın bağlanış mərasimində ''Olimpiya dünyası'' qəzetinin baş redaktorunun müavini, ''Olimpnews.az'' saytının baş redaktoru Aslan Şirəliyev tədbirlə bağlı öz fikirlərini bildirdi. Qeyd olundu ki, düz bir əvvəl oktyabr 17-də Füzuli rayonunun işğaldan azad olunması Azərbaycan tarixində qızıl hərflərlə yazılıb. "44 günlük Vətən müharibəsi zəfər dolu günlərlə yadda qaldı. Bu zəfər dolu günləri bizə yaşatdığı üçün Müzəffər Ali Baş Komandan İlham Əliyevə və rəşadətli Ordumuza borcluyuq. Vətən uğrunda canını fəda edən hər bir şəhidimizə Uca Tanrıdan rəhmət diləyir, qazilərimizə şəfa arzulayırıq. Bugünki tədbirin ərsəyə gəlməsində öz köməkliyini əsirgəməyən təşkilatçılara öz minətdarlığımı bildirirəm", - deyə Aslan Şirəliyev bildirdi.

Dünya Narkotiklə Mübarizə Aparan İdmançılar Federasiyasının Azərbaycan nümayəndəliyinin rəhbəri Cavid Allahverdiyev çıxışında bildirdi ki, bu günləri bizə yaşadan qəhrəman əsgərlərimizə minnətdarıq. O dedi: "Şəhidlik zirvəsinə ucalan oğullarımızın ruhları qarşısında baş əyirik. Qazilərimizə isə şəfa diləyirik. Yoldaşlıq görüşündə tədbirdə idman mediasının nümayəndələrini, qazilərimizi və idman ictimaiyyətinin bir araya gətirdik. Bu qarşılaşmada simvolik olaraq 4:4 hesabı qeydə alındı. Həmin hesab 44 günlük Vətən müharibəsində qazandığımız qələbəmizi özündə əks etdirir. Fürsətdən istifadə edərək qeyd edim ki, tədbirdə dünya və Avropa çempionları və Olimpiya Oyunlarının iştirakçısı olan idmançılarımız - Cavid Çələbiyev, Emil Hacıyev, Orxan Səfərov və Xəyal Əhmədov da iştirak edirlər. Bu iştiraka görə onlara da təşəkkür edirik".



Sonra çıxış üçün söz Qarabağ müharibəsi veteranı, "Bakı" Futbol Federasiyasının səlahiyyətli nümayəndəsi, tanınmış jurnalist Mahir Süleymanova verildi. Birinci Qarabağ döyüşlərində iştirak edən Mahir Süleymanov bunları dedi: "Bu gün torpaqlarımız düşmən tapdağından azad edilib. Hər zaman Azərbaycan əsgəri döyüşlərdə rəşadət göstərib. Qarabağ döyüşlərinin iştirakçıları, Vətən müharibəsində qalib əsgərlərlə birlikdə bir komandada çıxış etmək böyük şərəfdir. Bu möhtəşəm qələbə sayəsində Azərbaycan dünyaya səs saldı. Biz bununla qürur duyuruq. Belə bir bir tədbirdə iştirakımızı təmin etdiyiniz üçün hər birinizə minnətdarlığımı bildirirəm".

Çıxışlar başa çatdıqdan sonra hər iki komandanın iştirakçılarına xatirə hədiyyələri təqdim olundu.

***Anar Əhmədov***

## *AMADA idmançılara dəstək məqsədi onlayn müraciət platformasını istifadəyə verib*

Azərbaycan Milli Antidopinq Agentliyi (AMADA) idmançıların antidopinq sahəsində hüquqi öhdəliklərinin yerinə yetirilməsinə kömək məqsədi ilə yeni platforma hazırlayıb. Bu platforma antidopinq sahəsi ilə bağlı bir sıra vacib hüquqi prosedurların onlayn formada həyata keçirilməsinə imkan verir.

AMADA-nın mətbuat xidmətindən verilən məlumata görə, antdopinq qayda pozuntularının araşdırılması zamanı idmançının hüquqlarının qorunması baxımından vacib olan hüquqi prosedurlar - idmançıdan izahat alınması, idmançının İntizam və ya Apellyasiya komitəsinə müraciət etməsi mövcuddur. Bundan əlavə, hər bir peşəkar idmançı öz karyerası ilə bağlı bir sıra qərarları (idmanı tərk etmə, idmana qayıtma, idman növünü dəyişmə, hərbi xidmətlə bağlı idmanı müvəqqəti tərk etmə) qəbul etdikdə bunun hüquqi cəhətdən rəsmiləşdirilməsinə məsuliyyət daşıyır. Həmin məsələlərlə bağlı məlumatlar AMADA-ya təqdim edilmədiyi təqdirdə bu, müəyyən hüquqi nəticələrə səbəb ola bilər. Qərarların hüquqi cəhətdən rəsmiləşdirilməsi mürəkkəb proses olmaqla yanaşı, bunun icrası hüquqi biliklər və vaxt tələb edir.

Məsələnin əhəmiyyətini nəzərə alaraq, AMADA onlayn müraciət platformasını istifadəyə verib. Belə ki, idmançıların işini asanlaşdırmaq məqsədi ilə hazırlanan səkkiz sadə nümunə (idmançılar üçün: antidopinq qayda pozuntusu ilə bağlı izahat forması, İntizam komitəsinə müraciət forması, Apellyasiya komitəsinə müraciət forması, idmanı tərk etmə forması, idmana qayıtma forması, idman növünün dəyişməsi forması, hərbi xidmət haqqında forma, respublika idman federasiyaları üçün: milli yığma komandadan çıxarılma forması) platformaya yerləşdirilib. Beləliklə, idmançılar AMADA-nın ofisinə gəlmədən, poçt xidməti və kağız daşıyıcılardan istifadə etmədən antidopinq sahəsi ilə bağlı yuxarıda qeyd olunan öhdəlikləri, habelə bir sıra hüquqi addımları onlayn şəkildə asanlıqla həyata keçirə bilər. Bunun üçün AMADA-nın rəsmi internet səhifəsinə daxil olaraq "onlayn müraciət" bölməsinə girmək (https://f.amada.az) və müvafiq formaları doldurmaq kifayətdir. Həmin bölmədə qaydalar və tələb olunan məlumatlar ətraflı şəkildə izah olunub.

İdmançılara dəstək məqsədi ilə dövrün tələblərini, o cümlədən də COVID 19 pandemiyasının gətirdiyi məhdudiyyətləri nəzərə alaraq fiziki ünsiyyətin minimuma endirilməsi və idmançıların işinin asanlaşdırılması üçün belə yeniliklərin tətbiqi davam etdiriləcək. Çünki idmançıların sağlamlıqlarının və hüquqlarının qorunması, onların idman fəaliyyətinin hüquqi cəhətdən düzgün təşkili AMADA üçün dəyişməz prioritetdir.

# OLİMPİYA 20 DÜNYASI



***20 illik yubileyinə hazırlaşan "Olimpiya dünyası" qəzeti müxtəlif illərdə geniş oxucu marağına səbəb olan yazılardan ən yaddaqalan məqamları təkrar nəşr etməkdə davam edir. Qəzetimizin ötən sayında "İdmançı sənət, sənətçi idman" rubrikası altında bir vaxtlar unudulmaz mərhum sənətkarlarımızla hazırladığımız müsahibələrdən bir neçəsini nəşr etmişdik. Bu sayımızda da ənənəni davam etdirərək, Xalq artistləri Kamal Xudaverdiyev və Habil Əliyev ilə müsahibələrdə yer alan idmanla bağlı xatirələri diqqətinizə çatdırırıq. Mərhum sənətkarlarımızın bu sahə ilə bağlı fikirləri heç zaman yaddaşlardan silinməyəcək.***

# Unudulmayan sənətkarlarımızın idmanla bağlı maraqlı xatirələri

## Kamal Xudaverdiyev: "Müəllimi ona idmandan uzaqlaşmağı məsləhət görüb"





Hansı sahədə çalışmasından asılı olmayaraq, idmanın hamı üçün vacib olduğunu deyən Kamal Xudaverdiyev bu sahəyə uşaqlıq illərindən maraq göstərib. Belə ki, o, 12-13 yaşlarında "Dinamo" idman cəmiyyətinin basketbol bölməsinə yazılıb. Bir müddət keçdikdən sonra isə boksla məşğul olmaq qərarına gəlib. Mirzəağa Əliyev adına Teatr İnstitutuna daxil olduqdan sonra bütün varlığı ilə ixtisasına bağlanan K.Xudaverdiyev artıq idmana kifayət qədər vaxt ayıra bilməyib. Müəllimi Rza Təhmasib də ona idmandan uzaqlaşmağı məsləhət görüb. Çətin seçim qarşısında qalan gələcək xalq artistimiz incəsənəti üstün tutub.

### "İdman insanı pis vərdişlərdən uzaqlaşdırır"

Kamal müəllim bir çoxları kimi futbolla da maraqlanır. O, stadiona getməsə də, televiziya vasitəsilə yayımlanan bütün futbol matçlarını izləyir. Məhəllələrdə futbol oynayan uşaqlara baxmaq isə sənətçiyə xüsusi zövq verir. Onun fikrincə, belə uşaqlarla mütləq maraqlanmaq və onları bu sahədə düzgün istiqamətləndirmək lazımdır. Aktyorumuz ölkəmizdə bu idman növünün daha yüksək səviyyədə inkişaf edəcəyinə ümid bəsləyir.

O, müasir gənclərimizə idmanla daha çox məşğul olmağı məsləhət görür. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi idman siyasətinin gənc nəslin sağlamlığının möhkəmləndirilməsinə xidmət etdiyini deyən Kamal müəllim idman və bədən tərbiyəsinin məqsədyönlü təbliğini dövlətçiliyimizin vacib şərtlərdən biri kimi dəyərləndirir. "İdman insanı pis vərdişlərdən uzaqlaşdırır", - söyləyən Kamal müəllim hər bir azərbaycanlını sağlam və güclü görmək istəyir.

### O, bütün qadın idmançılarımızı tanıyır

"İdman qadın üçün deyil" fikri ilə qətiyyən razılaşmayan Kamal Xudaverdiyev zərif cinsin nümayəndələrinin idmanla məşğul olmasını qadın müstəqilliyinin təzahürü kimi qiymətləndirir. O, İnna Rıskal, Rəfiqə Şabanova, Ziba Ələsgərova və bir neçə idmançımız haqqında danışdı. Müsahibimiz dünya və Avropa çempionatlarında, olimpiadalarda ölkəmizin idman şərəfini layiqincə qoruyan, bayrağımızı yüksəklərə qaldıran Zemfira Meftaxetdinova, İradə Aşumova, Zülfiyyə Hüseynova, Kifayət Qasımova kimi qadın idmançılarımızla fəxr etdiyini dedi.

### Balaca Kamal idmançı olmaq istəyir

Sağlam həyat tərzinə üstünlük verən Kamal müəllimin ailəsində idmana maraq göstərənlər az deyil. Belə ki, oğlu Rövşən bir müddət boks bölməsinə gedib və hətta iştirak etdiyi bir neçə yarışlarda yüksək nailiyyətlər əldə etməyə də müvəffəq olub. Aktyorun kiçik nəvəsi yeddi yaşlı Kamal isə karateyə maraq göstərir. O, gələcəkdə peşəkar idmançı olmaq fikrindədir.

### "Mənim idmançılara böyük hörmətim var"

- Son vaxtlar ölkəmizdə idmana dövlət səviyyəsində göstərilən qayğı öz bəhrəsini verir. Bunu idmanın bir çox sahələri üzrə respublikamızda təşkil olunmuş dünya, Avropa birinciliklərı də təsdiq edir.

Fikrimcə, güləş məktəbi digər idman növlərinə nisbətən daha çox inkişaf edib. Bu idman növü üzrə idmançılarımızın yüksək nəticələr əldə etmələri buna parlaq nümunədir. Mötəbər turnirlərdə bayrağımızın qaldırılması, himnimizin səsləndirilməsi vətənini sevən hər bir azərbaycanlı üçün böyük fəxrdir. Mənim Namiq Abdullayevə, Fərid Mansurova, Vitali Rəhimova, Hüsaməddin Rəcəbova, eləcə də ölkəmizi beynəlxalq yarışlarda təmsil edən bütün idmançılara böyük hörmətim var.



## Habil Əliyev: "Kim idman etmirsə, günah onun özündədir"



- İdman onu başa düşən, dərk edən insanlar üçün hər şeydən vacibdir. İdman vasitəsilə müqəddəs sayılan bayrağımız yüksəklərə qalxır, bütün dünya buna şahid olur. Bunu idmançılardan başqa kim edə bilər? Himnimizi Olimiya oyunlarında səsləndirən idmançılarımızın alnından öpürəm. Onlar təkcə rəqiblərinə qalib gələrək medal qazanmayıblar, həm də beynəlxalq arenalarda, bütün dünyanın gözü önündə Azərbaycanımızın bayrağını qaldırıb, himnini səsləndiriblər. İdmançılar milyonlarla tamaşaçını riqqətə gətirirlər, onlar ayaq üstə himnimizi dinləyir, bizi alqışlayırlar. Mən bu səhnələrə həyəcansız baxa bilmirəm. Bu, çox təsirli məqamdır. İnsan belə anlar qarşısında necə soyuqqanlı ola bilər? Mən idman haqqında nə qədər danışsam, azdır. Bu işlə məşğul olan bütün insanlar sağlam bədənə, sağlam ruha sahibdirlər.

### "İdman insanlarda igidlik, qəhrəmanlıq, mübarizlik hissini formalaşdırır"

- Veteran idmançıları görəndə onlara qibtə ilə baxıram. Düşünürəm ki, kaş mən də idmançı olardım (gülür). İdmançılara bu gün böyük dövlət qayğısı var. Onların əməyi yüksək səviyyədə qiymətləndirilir. Onlara verilən bu qiymət idmançılar üçün ən böyük stimuldur. Azərbaycan xalqının, əsasən də gənc nəslin sağlam böyüməsi, idmanın inkişaf etməsi üçün respublikamızın bütün bölgələrində Olimpiya idman kompleksləri tikilib istifadəyə verilib. Müasir idman avadanlıqları, stadionlar, parklar bizim xidmətimizdədir. Ölkəmizdə idman sözün əsl mənasında yüksək səviyyədədir. Kim idman etmirsə, günah onun özündədir. Bütün ailələrdə idmanla məşğul olan insanlar var. İndi uşaqların, gənclərin çoxu idmançı olmağa can atırlar. Valideynlərin də istəyi uşaqlarını həm sağlam, həm də idmançı kimi görməkdir. Lakin, idmanı daha çox təbliğ etmək lazımdır. Çünki bu, onun keşiyində durmaq deməkdir. Bu cəhətdən qəzetinizin işini yüksək qiymətləndirirəm. İdman haqqında nə qədər çox yazılarsa, nə qədər çox məlumat verilərsə, bir o qədər faydası olar. Bizim gənc ailələr bilməlidirlər ki, ölkəmizə sağlam övladlar lazımdır. Qüvvətli, sağlam gənc nəslə ehtiyacımız var. Qəhrəmanlarımız içində çoxlu sayda idmançılarımız var. Məhz idman insanlarda igidlik, qəhrəmanlıq, mübarizlik hissini formalaşdırır. Bu baxımdan gələcəyin əsgərləri sağlam olmalıdırlar.

### "Sürətli qaça bilsə idim futbolçu olardım"

- İdman təkcə oğlanlar üçün gərəkli deyil, həm də qızlar üçün vacibdir. Sağlam, gözəl görünüşlü qızların, qadınların əksəriyyəti buna görə idmana borcludurlar. İdmanın insana yalnız xeyri var. Bu, tənbəlliyin də qarşısını alır. Bəzi adamlar hərəkətsiz həyat sürdüklərinə görə müxtəlif xəstəliklərə tutulurlar. Bunun da səbəbi idmandan uzaq düşmək, hərəkətsiz həyat tərzi keçirməkdir. Mən bu yaşımda belə hərəkət etməkdən zövq alıram. Sağlam və uzun yaşamağın sirlərindən biri də məhz çox hərəkət etməkdir. Bütün idman növlərini xoşlayıram. Əsas odur ki, insan bundan zövq alsın. Ən çox boks, güləş və voleybol idman növlərinə baxıram. Döyüşməkdən xoşum gəlməsə də, döyüşənlərə baxmaqdan zövq alıram (gülür). Uşaq ikən rəqslə məşğul olurdum. Elə musiqinin özü də idmanın bir çox xüsusiyyətlərini daşıyır. Sürətli qaça bilsə idim futbolçu olardım. Allah hər kəsə bir istedad verir. Əsas odur ki, o istedadın sayəsində ölkəni dünyada tanıda biləsən, xalq üçün çalışasan. Bacarıqlı olmaq hər kəsin işi deyil. İstedadlı insanlara, idmançılara hər zaman hörmət və kömək etmək lazımdır.

Futbolumuzla bağlı düşüncələr



*Mobil İSMAYILOV*

# Bir fincan çay içə-içə...

***Son vaxtlar tez-tez Azərbaycanın futbol ölkəsi olmaması barədə fikirlər səsləndirilir. Yığmamızı çalışdırmış xarici mütəxəssislər də həmişə belə mövqedə olublar. Amma mən bu fikirlərlərazı deyiləm.***

Gəlin, çox da uzaq olmayan keçmişə qayıdaq, ümumiyyətlə, geriyə bir nəzər salaq.SSRİ dövründə Pribaltika respublikaları, Moldova, Tacikistan, Türkmənistan, Qırğızıstan birmənalı futbol respublikaları hesab edilmirdi. “Kayrat” və “Paxtakor” güclülər dəstəsində çıxış etsə də, Qazaxıstan və Özbəkistan da tam, mütləq mənada futbol respublikaları sayılmırdı. Ancaq Azərbaycan futbol respublikası kimi qəbul edilirdi. “Neftçi”nin uğurlarını xatırlayaq. Doğma komandamızın hər qələbəsi toy-bayram kimi qarşılanırdı.




S.Vurğun adına bağda hər oyundan əvvəl və sonra azarkeşlərin yığışmasını, qızğın müzakirələri yaşlı nəslin nümayəndələri yəqin indi də təbəssümlə yada salırlar. Kirovabadın (indiki Gəncənin) “Dinamo” komandasının güclülər dəstəsinə vəsiqə qazanması isə tarixi bir nadisə idi. İttifaq miqyasında yığmaya seçimdə böyük rəqabət olmasına baxmayaraq, 1966-cı il dünya çempionatına gənc Banişevski aparıldı. Sonradan da əsas heyətdə möhkəmləndi. Daha sonralar SSRİ yığmasının hücum xəttində hər dəfə Banişevski ilə yanaşı “Neftçi”nin digər futbolçusu Şevçenkonu da görəndə qürur hissi keçirirdik. O dövrdə futbola misilsiz bir sevgi var idi.

## “Onlar və bizlər”

İndi isə deyirlər ki, Azərbaycan futbol ölkəsi deyil. Azərbaycanda idmanın əksər növlərinə böyük diqqət göstərilməsi göz qabağındadır. Bu gün futbolumuz da qayğıdan kənarda qalmayıb. Lakin futbolumuzun indiki durumu diqqət, qayğı məsələsi ilə bağlı deyildir. Burada başqa səbəblər vardır və geniş bir yazının mövzusudur.

Belə deyirlər ki, istedadın milləti olmur. Əlbəttə. bu fikir bəlkə də mübahisəli bir mövzunun predmetidir. Nə deyirəm, ola bilər. Qoy olsun. Yaxşı indi sız deyin: Niyə bütün dövrlərdə gürcülər bizdən yaxşı futbol oynayıblar? Onların daha çox məşhur futbolçuları, ulduzları olub. Nə üçün SSRİ vaxtında nəinki futbolda, ümumiyyətlə idmanın digər növlərində də bizdən irəlidə oldular? Spartakiadalarda da həmişə bizi qabaqlayıblar. Deyə bilərsiniz ki, onlara təbiət tərəfindən genetik olaraq belə bəxş olunub.Yazının bu yerində bir epizodu xatırlamaq istəyirəm. Vaxtı ilə Berti Foqts “Bakı” klubunun idman bazası ilə tanış olanda bildirmişdi ki, heç Münhenin “Bayern” komandası da bu cür müasir standartlara uyğun bazaya malik deyil. “Bakı” komandasını çalışdıranları yadınıza salın - Starkov, Vinfrend Şaffer, Pantiç və başqaları. “Bakı” komandası Çempionlar Liqasının birinci təsnifat mərhələsində Gürcüstanın “Sioni” komandasına səfər meydanında 0:2 hesabı ilə məğlub oldu. Komandamız öz meydanında 1:0 qalib gəlsə də, mübarizəni dayandırmalı oldu. Yeri gəlmişkən qeyd edim ki, o vaxt qalib komandanı Badri Kvaratçxeliya və Kaxaber Tsxadadze çalışdırırdı. İndi təsəvvür edin o dövrdə bu iki komandaya yetirilən diqqətə ( “Bakı” nın prezidenti Hafiz Məmmədov idired). Həmin ərəfədə bu iki klubun büdcəsi heç müqayisəyə gəlməz dərəcədə fərqli idi.

Niyə braziliyalılar “planetdə hamıdan irəlidədirlər” - deyimi bu günə qədər də köhnəlməyərək hələ də qəbul olunur? Braziliyada hansısa məhəllədən gələn, heç kimin tanımadığı gənc futbolçu istedadı, bacarığı sahəsində qısa müddət ərzində məşhur klubun heyyətinə düşə bilər, hətta yığma komandaya da dəvət alar. Mən deməm ki, biz onlar kimi olaq. Əlbəttə, biz Braziliya ola bilmərik. Braziliyada ulduzlar sanki “inkubatordan doğulub, yetişirlər”.

Bəs, bir neçə il bundan əvvəl İslandiya kimi kiçik bir ölkənin gözlənilmədən futbol dünyasında yaratdığı təlatümü necə izah edə bilərik? Xorvatların İngiltərə ilə yarımfinal oyunu yadınızdadırmı? Xorvatiya futbolçuları yorulsalar da, birdən-birə sanki özlərində cəngavər gücü tapdılar. Bu cəngavərliyə ingilis futbolçuları da çaşıb qalmışdılar. Ona görə ki, xorvat futbolçularının içlərindəki ümidsonacan qaldı.Və bu ümiddən güc alan xorvatlar özlərini toparlayaraq, yenidən irəli atıldılar. Onlar hər şeyi qələbə ruhunda kökləməyi bacardılar. Ona görə qalib gəldilər ki, özlərini cəmləşdirib irəli atılmağı bacardılar.




Baxın, Portuqaliyadan gəlmiş futbolçular artıq bütün Avropanı bürüyüb. Bəlkə onlarda futbola olan qayğı, diqqət bizdən qat-qat artıqdır?! Əsla yox. Amma Portuqaliyanın Qətərlə yoldaşlıq oyununda da stadion dolu idi...

Necə olur ki, elə də futbol ölkəsi sayılmayan Finlandiyanın dünya çempionatının seçmə qrup mərhələsində Ukrayna ilə qarşılaşmasında tribunalar dəmək olar ki, ağzınacan dolur? Hətta Qazaxıstanın Bosniya və Herseqovina ilə oyununda da təxminən buna bənzər mənzərə ilə rastlaşdıq... İndi də gəlin, bizim İrlandiya ilə axırıncı oyunumuzu yada salaq. Qrupda sonuncu yeri tərk etmək baxımından matç prinsipial əhəmiyyət daşıyırdı. Lakin təəssüf ki, stadionda çox az sayda tamaşaçı gördük... Sonra da müzakirələr açırıq ki, biz futbol ölkəsi kimi qəbul edilmirik. Bəs nə vaxt başqa ölkələrdə də bizim futbolun sıçrayışından, təlatümündən danışacaqlar?!

Tanınmış mütəxəssis Havyer Klementenin Azərbaycanla oyunu “piknikə” bənzətməsi nədənsə heç yadımdan çıxmır. Serbiya yığmasını çalışdırdığı vaxt onun komandası Avropa çempionatının seçmə qrup oyununda 2008-ci ildə Bakıda Azərbaycan yığmasını 6:1 hesabı ilə acı məğlubiyyətə uğratmışdı. “Heç bir əziyyət çəkmədən, asanlıqla qələbə qazandıq. Səfər oyunu olmasına baxmayaraq futbolçularım elə bil piknikə getmişdilər” - sözləri müsahibə zamanı onun dilindən çıxmışdı.

Görürsünüzmü, futbolumuzun səviyyəsi bizə hətta açıq formada yuxarıdan aşağıya baxılmasına da gətirib çıxarmışdır. Axı, belə davam edərsə, Cəbəllütariqin, San-Marinonun, Andorranın səviyyəsinə düşə bilərik.




*(ardı var)*

## Avropa çempionatında uğur qazanmış fudokan komandamızla görüş keçirilib

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov Polşanın Katovis şəhərində keçirilən fudokan üzrə 25-ci Avropa çempionatının qalib və mükafatçılarını və Dünya Fudokan Federasiyasının (DFF) Azərbaycandakı rəsmi və səlahiyyətli nümayəndəsi ilə görüşüb. R.Abbasov qalib və mükafatçıları təbrik edib, fudokan üzrə ölkəmizdə gələcəkdə böyük layihələrin həyata keçirilməsi və bu idman növünün inkişafı ilə bağlı müzakirələr aparılıb.

DFF-nin Azərbaycandakı rəsmi və səlahiyyətli nümayəndəsi Vüsal Abdullazadə Dünya Fudokan Federasiyası tərəfindən verilmiş 25-ci Avropa çempionatının xatirə medalını və Azərbaycan komandasının qazandığı uğurlara görə təşəkkür diplomunu R.Abbasova təqdim edib.

Sonda R. Abbasov V.Abdullazadəni, turnirin qalib və mükafatçılarını fəxri diplomlar ilə təltif edib.

## Paytaxt birinciliyinin qalibləri mükafatlandırıldı

Respublika Velotrekində trek velosipedi üzrə Bakı birinciliyinə yekun vurulub. Yarışda klub və cəmiyyətlərin 60-a yaxın idmançısı mübarizə aparıb. Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi və Azərbaycan Velosiped İdmanı Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən yarışda bütün yaş kateqoriyaları üzrə idmançılar 12 növdə güclərini sınayıblar.

Yarışın keçirilməsində əsas məqsəd 2022-ci ildə təşkil olunacaq İslam Həmrəyliyi Oyunları, həmçinin dünya və Avropa çempionatlarında iştirak edəcək trek velosipedi üzrə yığma komandaya namizəd idmançıları müəyyənləşdirməkdir.

Bakı birinciliyinin qalib və mükafatçıları Bakı şəhər Gənclər və İdman Baş İdarəsi və Azərbaycan Velosiped İdmanı Federasiyası tərəfindən medal, diplom və hədiyyələrlə təltif ediliblər.

## Federasiya prezidentinə fəxri fərman təqdim olunub

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsində (BŞGİBİ) Bakı Kəndlər Futbol Federasiyasının prezidenti Vaqif Davudovla görüş keçirilib. Futbolda uzun müddətli səmərəli fəaliyyəti, A.A.Banişevskinin 75 illik yubileyi, Banişevski turnirin 25 illiyi və Bakı Kəndlər Futbol




Federasiyasının 15 illiyi münasibətilə Vaqif Davudova fəxri fərman və xatirə hədiyyəsini Baş İdarənin rəisi müavini Rəşad Əliyev təqdim edib.

Göstərilən diqqət və qayğıya görə Bakı Kəndlər Futbol Federasiyasının prezidenti Vaqif Davudov BŞGİBİ-nin rəhbərliyinə öz minnətdarlığını bildirib. Qeyd olunub ki, gələcəkdə bu cür yarışların təşkil olunacaq, yeniyetmə və gənclərin futbola marağının artmasında və kütləviliyin təmin olunmasında daha səmərəli işlər görüləcək.

# Tokio-2020: müzakirə olunan “pərdəarxası” məqamlar

***Bütün dünyanın uzun müddətdir ki, səbirsizliklə gözlədiyi XXXII Yay Olimpiya Oyunları nəhayət ki, bu il təşkil olundu. 17 gün ərzində dünya saysız-hesabsız sevinc və kədər göz yaşlarına şahidlik etdi. Lakin Oyunlarda hər şey göründüyü kimi, mükəmməl olmadı. Belə ki, yarışlar bir sıra hadisələrlə yadda qaldı. Dördilliyin zirvə yarışını xüsusi diqqətdə saxlayan “Olimpiya dünyası” qəzeti budəfəki sayında XXXII Yay Olimpiya Oyunlarında baş verən qalmaqalların bir neçəsini oxucuların diqqətinə çatdıracaq.***




## BOK-un tərəfkeşliyi yoxsa texniki səhv?

Maraqlıdır ki, başıbəlalı Tokio-2020 Yay Olimpiya Oyunlarının ətrafında qalmaqal hələ Oyunların açılış mərasimindən əvvəl yaranmışdı. Belə ki, Oyunların rəsmi saytı olan “Olympics.com”da yaranan “Olympics Cheer Zone” pəncərəsində Ukrayna ilə Krım arasında sərhəd xətti çəkilmişdi. Belə çıxırdı ki, Beynəlxalq Olimpiya Komitəsi (BOK) Krım ərazisin Rusiyaya mənsub edib. Lakin məsələ heç də bunda deyildi. Belə ki, bir sutkadan az bir müddətə həmin xətt silindi. “Bu, texniki işçilərin səhvi idi. Bizim bu haqda məlumatımız olan kimi səhv dərhal aradan qaldırıldı. Yaranan bu səhvə görə üzr istəyirik”, - deyə Təşkilat Komitəsi öz qərarına aydınlıq gətirdi.

Onu da qeyd edək ki, ilk baxışdan xırda səhv kimi görünən bu hadisə dünyada birmənalı qarşılanmadı.

## “Xolokost oyunu”

XXXII Olimpiya Oyunlarının bir il təxirə düşməsi onun daha da mükəmməl təşkil olunmasını tələb edirdi. Hər bir detalın hazır olduğu vaxtda gözlənilməz hadisə baş verdi. Belə ki, Olimpiya Oyunlarının açılış mərasiminin rejissoru Kentaro Kobayasi vəzifəsindən azad edildi. Qərar isə nə az, nə çox, Oyunlara düz bir gün qalmış verildi. Buna səbəb isə yapon komikinin 23 il əvvəl dediyi ifadə olub. Belə ki, o, 1998-ci ildə çıxışlarının birində tamaşaçılara “Xolokost oynamaq” təklif edib. Sosial şəbəkələrdə K.Kobayasinin 1998-ci ildə Xolokost faciəsinə istehza ilə yanaşması məlum olduqdan sonra o, vəzifəsindən azad edildi.

“Məlum oldu ki, Kobayasi keçmişdəki çıxışında tarixin faciəvi hadisəsinə istehza ilə yanaşıb”,- deyə Tokio Olimpiya Oyunlarının Təşkilat Komitəsinin sədri Seyko Xasimoto bildirib. Onun sözlərinə görə, rejissor ifadəsinə görə üzr istəyib və şəxsi istəyi ilə vəzifəsini tərk edib. Məsələ ilə bağlı K.Kobayasi isə “çoxlarının da qeyd etdiyi kimi mənim dediklərim həqiqətən də yersiz idi. Dediklərimdən peşmanam və üzr istəyirəm” dedi. Maraqlıdır ki, bu, Tokio-2020-də yeganə işdən azad olunma deyildi. Belə ki, iyulun 19-da Oyunların açılış mərasiminin bəstəkarı, yaponiyalı musiqiçi Keyqo Oyamada istefa vermişdi. 52 yaşlı musiqiçinin bu addımının səbəbi onun mediada yayılan 1994-cü ilə aid olan müsahibəsi olub. Həmin müsahibədə K.Oyamadanın peşmançılıq hissi keçirmədən məktəb illərində fiziki qüsurlu insanları və qrup yoldaşlarını ələ saldığı məlum olub.

## “Mən ölə bilərəm”

Olimpiya Oyunlarının Təşkilat Komitəsi pandemiya şəraitinə tam uyğun olmağa çalışsa da, idmançılar arasında təşkilatdan narazı qalanlar da oldu. Belə ki, tennisçilərin qızmar gün altında oyunları keçirməsi ilə bağlı şikayətləri uzun müddət Təşkilat Komitəsi tərəfindən nəzərə alınmırdı. Tokionun dəhşətli istiləri idmançılara, sözün əsl mənasında, ciddi problemlər yaradırdı. Yalnız “ulduzların” bu məsələyə münasibət bildirməsindən sonra təşkilatçılar yarış cədvəlində dəyişiklik etmək qərarı verdilər. Nəticədə, Daniil Medvedevin “mən kortda ölə bilərəm”, - ismarıcından sonra təşkilatçılar yarış cədvəlinə nəzər salıb, oyunları daha gec bir vaxta dəyişmək qərarı aldılar. Amma bu qərar qəbul olunana kimi isti faktoru bir çox idmançıların səhhətinə ciddi təsir etmişdi. Bunun sübutu olaraq, Daniil Medvedev 1/8 final mərhələsinin gərgin görüşündən sonra növbəti çıxışını davam etdirmək üçün özündən güc tapmamışdı.

## Yarışdan imtina edən atletin aqibəti

Olimpiya Oyunlarında qalmaqal Belarus millisindən də yan keçmədi. Bu dəfə qalmaqalın mərkəzində millinin atleti Kristina Timanovskaya oldu. O, oyunlarda 100 və 200 metr məsafədə mübarizə aparmalı idi. Lakin iki belaruslu idmançının yetərli dopinq nümunəsinin olmaması səbəbi ilə 400 metrlik 4 estafetə buraxılmadı. Belə ki, Belarus Milli Olimpiya Komitəsi bu məsafədə yarış üçün K.Timanovskayanı da ələ etdi. Maraqlısı odur ki, atlet bu məsafədə peşəkar şəkildə heç vaxt mübarizə aparmamışdı. İyulun 30-da idmançı şəxsi instaqram hesabında yaranan münaqişəyə sərt reaksiya verərək, baş verənlərdə günahın belaruslu məmurlarda olduğunu bildirdi.

Avqustun 1-də isə K.Timanovskaya bəyan etdi ki, Minskdən gələn göstərişə əsasən onu Oyunlardan xaric edib, güc tətbiqi ilə Belarusa yollamaq istəyirlər. Tokio hava limanında isə idmançı təyyarəyə minməkdən imtina edərək, polisə müraciət etdi. Avqustun 3-də Beynəlxalq Olimpiya Komitəsi (BOK) Kristina Timanovskaya ilə bağlı qalmaqalı şəxsən araşdıracağı ilə bağlı məlumat yaydı. Polşaya humanitar viza alan atlet isə avqustun 4-də Vyanadan Varşavaya uçdu.

## “O, dəqiq qadındır?”

Namibiyalı qadın sprinter Kristin Mboma 200 metr məsafəyə qaçışda gümüş medal sahibi oldu. İlk baxışdan normal bir hadisə olsa da, Kristinin bu qələbəsi bəzi idmançılarda çaşğınlıq və sual yaratdı. “Yəni, onlar həqiqətən qadınla mübarizə apardılar?”. Bu sualın yaranmasının isə maraqlı bir səbəbi var. Daha dəqiq desək, atletin orqanizmdəki testesteron səviyyəsidir. Belə ki, lap kiçik yaşlarından Kristin Mbomanın analizlərində kişi hormonunun təbii üstünlüyü müşahidə olunurdu. Belə hormonal pozuntu hiperandroheniya adlanır.

Bu hormon insana sürətli start, dözümlük və stresə dayanıqlıq verir.

## Bitməyən dopinq qalmaqalı

İdmanın bir üzü qələbə və medallar olsa da, digər üzü heç vaxt bitməyən dopinq qalmaqalıdır.

Dopinq mövzusu XXXII Yay Olimpiya Oyunlarında da müzakirə mövzusuna çevrildi.

Belə ki, 100 metrlik final qaçışından bir neçə saat əvvəl məlum oldu ki, yarışların liderlərindən biri hesab olunan nigeriyalı Blessinq Okaqbarenin dopinq testində böyümə hormonu aşkarlanıb. Nəticədə, atlet müvəqqəti olaraq Oyunlardan kənarlaşdırıldı. Məlumata görə, idmançıdan iyulun 19-da götürülən test onun dopinq qəbul etdiyini sübut edib.

Qeyd edək ki, 2008-ci ildə Pekində keçirilən Olimpiya Oyunlarında Blessinq Okaqbare uzununa tullanma üzrə braziliyalı Maurenu Hiqa Maqqi və rusiyalı Tatyana Lebedevaya məğlub olaraq, bürünc medal qazanmışdı. Lakin 2017-ci ildə T.Lebedeva dopinq qəbulunda təqsirli bilinərək, gümüş medal B.Okaqbareyə təqdim olundu. 2013-cü ildə Moskvada təşkil olunan dünya çempionatında atlet 200 metrlik qaçış üzrə bürünc, uzununa tullanma üzrə isə gümüş medal qazanıb.

## Ümidləri yarıda qoyan ölüm xəbəri

Təəssüf ki, Olimpiya Oyunları zamanı idmançılar sözün əsl mənasında sarsıdıcı xəbərlər də aldılar. Belə ki, idman gimnastikası üzrə dördqat Olimpiya çempionu Simona Baylz oyunlar zamanı bibisinin vəfat etdiyi xəbərini aldı.

Qeyd edək ki, Simona Baylz dayaqla tullanmadan sonra komanda üzrə çoxnövçülük yarışlarını vaxtından əvvəl dayandırdı. Daha sonra Amerika gimnastı fərdi çoxnövçülükdə, brus və dayaq tullanma yarışlarının finallarında, həmçinin sərbəst hərəkətlərdə iştirakdan imtina etdi.

## Milli yenə də tənqid olundu

Uzun müddətdir davam edən dopinq qalmaqalından sonra Rusiya millisinə yarışlarda iştirak etmək hüququ verilsə də, Şimal qonşularımıza dövlət bayrağı altında çıxış etmək, qələbə qazanılan təqdirdə isə dövlət himninin səslənməsi qadağan edilib. Lakin Rusiya təmsilçiləri Olimpiya Oyunları zamanı yenidən qalmaqal mərkəzində yer aldılar. Belə ki, bu dəfə Dünya Antidopinq Agentliyinin (WADA) sədri Vitold Banka Rusiya idmançılarının Olimpiya Oyunlarındakı üçrəngli geyimini tənqid edib.

“Mən düşünürəm ki, bizim bütün addımlarımız faktlara əsaslanmalıdır. Yəni biz hisslərimizə güvənməli deyilik. Ən əsası isə biz Rusiyanın İdman Arbitraj Məhkəməsinin (CAS) bütün şərtlərinə riayət etməsinə nəzarət edirik. Amma bizim məyusluğumuzun səbəbi odur ki, CAS Rusiya millisinə qarşı tədbiq olunan sanksiyanı 2 ilə endirdi. Həmçinin XXXII Yay Olimpiya Oyunlarında Rusiya təmsilçilərinin dövlət bayrağı rəngini əks etdirən idman geyimində çıxış etməsinə icazə verilməsidir. Əslində isə bu, neytral status olmalı idi”, - deyə sədr bildirib.

## Qələbə naminə istismar olunan əmək

Oyunlar zamanı Avstraliya Olimpiya Komitəsi də tənqidlə üzləşib. Buna səbəb millinin rəsmi Olimpiya geyiminin “Asic” şirkəti tərəfindən hazırlanmasıdır. Belə ki, bu şirkətin idmançıların geyimi üçün Çinin Sintzyan bölgəsindən toplanılan pambıq və yerli əhalinin zəhmətinin istismarı nəticəsində hazırlanan sapdan istifadə etməsi iddia edilir. Əvvəlcə “Asic” şirkəti rəsmi Çin sosial şəbəkələrində Sintzyandan pambıq alışına davam edəcəyini bildirmişdi. Lakin daha sonra sözlərini geri götürərək: “bu bəyanat razılaşmış deyildi və şirkətin rəsmi mövqeyini dəstəkləmir. Avstraliya Olimpiya millisinin rəsmi geyimini Sintzyandan gətirilən pambıq təşkil etmir və bu bölgədə hazırlanmayıb”, - deyə bildirmişdi.

Qeyd edək ki, 2020-ci ildə Avstraliyanın strateji Siyasət İnstitutunun məruzəsindən sonra Sintzan pambığı mübahisə mövzusuna çevrildi. Belə ki, bu məruzədə Çinin 9 bölgəsində yerləşən 27 fabrikdə 80 min insanın əməyinin istismar edildiyi barədə məlumat verilmişdi.

***Hazırladı:***
***Türkay Niftəliyeva***

# F U T B  L

## Azərbaycan Premyer Liqası: "Qarabağ" zirvədə güclənir



***Futbol üzrə Azərbaycan Premyer Liqasında VII turun oyunları keçirilib. Günün ilk oyununda "Səbail" klubu öz meydanında "Keşlə"ni qəbul edib. Qarşılaşma qonaqların 2:1 hesablı qələbəsi ilə yekunlaşıb. Görüşdəki qollar ikinci hissədə vurulub.***

Matçın 68-ci dəqiqəsində Tərlan Quliyev cərimə zərbəsindən hesabı açaraq "Keşlə"ni hesabda önə çıxarıb. Üç dəqiqə sonra Rauf Əliyev bərabərlik qoluna imza atıb. Qarşılaşmanın 81-ci dəqiqəsində isə Anatole Abanq "Keşlə"yə qələbə qazandıran qolu vurub.

Bu nəticədən sonra xallarının sayını 7-ə çatdıran "Keşlə" klubu 6-cı pillədə qərarlaşıb. "Dənizçilər" isə 6 xalla 7-cidir.

Günün digər matçında "Qəbələ" klubu "Zirə" ilə üz-üzə gəlib. Qarşılaşma 1:1 hesabı ilə yekunlaşıb. "Qartallar"ın heyətində Cəlal Hüseynov 18-ci dəqiqədə hesabı açıb. Meydan sahibləri bu qola fasilədən sonra cavab verib. Ülvi İsgəndərov 79-cu dəqiqədə topu qonaqların qapısından keçirib.

Matçdan sonra qalmaqal yaşanıb. "Qəbələ"nin futbolçusu Ehtiram Şahverdiyev Dmitrios Çantakiasa başı ilə zərbə endirdiyi üçün qırmızı vərəqə alaraq meydandan qovulub. Yunanıstanlı müdafiəçi isə sarı vərəqə alıb. Komanda yoldaşları E.Şahverdiyevi sakitləşdirməkdə çətinlik çəkib.

Xallarının sayını 12-ə çatdıran komandalar 3-4-cü yerləri bölüşdürürlər.

Turun ikinci oyun günündə "Kapital Bank Arena"da "Sumqayıt" və "Neftçi" komandaları üz-üzə gəlib. FIFA referisi Elçin Məsiyevin idarə etdiyi görüş 1:1 hesablı heç-heçə ilə yekunlaşıb. Hər iki qol ikinci hissədə vurulub. Matçın 50-ci dəqiqəsində meydan sahiblərindən Murad Xaçayev topu rəqib qapısından keçirib. Bundan cəmi 4 dəqiqə sonra qonaqların belçikalı yarımmüdafiəçisi Sabir Buqrin uzaqdan baxımlı qola imza atıb. 77-ci dəqiqədə isə "Sumqayıt"ın və Azərbaycan millisinin zədəsi yenicə bərpa olunmuş hücumçusu Əli Qurbani ikili mübarizə zamanı dizindən xəsarət alaraq əvəzlənməli olub. Bu nəticədən sonra "Neftçi" 14 xalla 2-ci, "Sumqayıt" 8 xalla 5-ci pillədə qalıb.

Turun və birinci dövrənin son oyununda "Qarabağ" klubu "Sabah"ın qonağı olub. Masazırdakı "Bank Respublika Arena"da keçirilən görüş Ağdam klubunun 2:1 hesablı qələbəsi ilə başa çatıb. Matçın 27-ci dəqiqəsində Ramin Quliyevin baş məşqçi olduğu komanda azlıqda qalıb. Paraqvaylı hücumçu Xulio Sezar Rodriges "köhlən atlar"ın qapıçısı Şahruddin Məhəmmədəliyevə ayağı ilə zərbə endirdiyi üçün meydandan qovulub. Matçda hesab 44-cü dəqiqədə açılıb. Qonaqların yarımmüdafiəçisi Filip Ozobiç fərqlənib. İlk hissə 1:0 hesabla başa çatıb.

İkinci hissədə də hücumlarını davam etdirən "Qarabağ" 51-ci dəqiqədə Abdullah Zubirin qolu ilə fərqi 2 topa çatdırıb. Oyunun 65-ci dəqiqəsində meydan sahiblərinin yarımmüdafiəçisi Aleksey İsayev buraxılan qollardan birinin əvəzini çıxıb.



Bu qələbədən sonra xallarını 17-yə çatdıran "Qarabağ" zirvədəki yerini möhkəmlədib. Bir xalı olan "Sabah" isə sonuncu pillədə qalıb.

## "Mançester Yunayted" seriyanı 30-a çatdıra bilmədi

"Mançester Yunayted"in Premyer Liqanın səfər matçlarındakı məğlubiyyətsizlik seriyası başa çatıb.

Belə ki, "qırmızı şeytanlar" 8-ci turda "Lester"ə səfərdə 2:4 hesabıyla uduzub. "Mançester Yunayted" ardıcıl 29 oyun idi ki, səfər matçlarında uduzmurdu. Komanda sonuncu dəfə 2020-ci ilin yanvarında "Liverpul"a 0:2 hesabıyla uduzmuşdu. Qeyd edək ki, "Mançester Yunayted" Premyer Liqada 5-ci sıradadır.

## Cəmi iki klub narazı deyil

Futbol üzrə İngiltərə Liqa Kubokunda əvəzetmə sayı artırılıb. İngiltərə mətbuatında yer alan xəbərlərə görə komandalara hər oyunda 5 futbolçu dəyişdirməyə icazə verilib. Qərar oktyabrın sonunda həyata keçiriləcək. Hazırda turnirdə mübarizəyə davam edən 16 klubdan 14-ü qrafikin sıx olmasından narazıdır. Qeyd edək ki, İngiltərə Liqa Kubokunda 1/8 final mərhələsi oktyabrın 26-da başlayacaq.

## Futbolçular Dohaya təxliyə ediliblər

Qətər hökuməti FIFA ilə birlikdə Əfqanıstan futbolçularını təxliyə edib. Dohaya yollanan təyyarədə ailələri ilə birlikdə 100-dək futbolçu yer alıb. Qətər idmançıların təxliyəsini koordinasiya etmək üçün ali futbol qurumu ilə əməkdaşlıq edib. Onların bu ölkədə nə qədər qalacaqları barədə məlumat verilməyib.

Talibanın ölkədə hakimiyyəti ələ keçirməsindən sonra oyunçuların təhlükəsizliyi ilə əlaqədar şübhələrlə əlaqədar onların evakuasiyasına başlanılıb.

## Mahir Emrelinin transfer qiyməti artdı

Polşanın "Legiya" komandasında çıxış edən Azərbaycan millisinin hücumçusu Mahir Emrelinin transfer qiyməti artıb. Bu barədə "Transfermarkt" məlumat yayıb.

Qeyd edilib ki, mövsümün əvvəlində transfer qiyməti 1 milyon avro olan M.Emrelinin Polşa komandasındakı uğurlu çıxışı onun transfer dəyərinə müsbət təsir göstərib. İyirmi dörd yaşlı forvardın transfer qiymətinin 2 milyon avro olduğu bildirilib.



Bununla da, millimizin üzvü Polşa Ekstraklasasının ən qiymətli futbolçularından ibarət ilk "10-luq"a daxil olub. O, komanda yoldaşı Bartoş Slişlə son iki yeri bölüşür.

Xatırladaq ki, Mahir Emreli yayda "Qarabağ"dan "Legiya"ya transfer olunub.

## "Kəndlərdə idmanı inkişaf etdirək" layihəsi Salyanda

***AFFA-nın və Salyan Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Kəndlərdə idmanı inkişaf etdirək" layihəsi üzrə növbəti tədbir keçirilib. Salyanın Kürkənd kəndində keçirilən tədbirdə ümumilikdə 50 məktəbli uşağa futbola marağı artırmaq məqsədi ilə idman geyimləri və futbol topları verilib.***

Bu layihə Azərbaycan Prezidenti İlham Əliyevin 2019-cu ilin dekabrında Milli Olimpiya Komitəsində idmançılarla görüşü zamanı kəndlərdə idmanın inkişafına dair verdiyi tövsiyələrin yerinə yetirilməsi istiqamətində atılmış addımdır.

Tədbirdə AFFA-nın vitse-prezidenti, Azərbaycan Uşaq və Gənclər Futbol Federasiyasının prezidenti, Milli Məclisin deputatı Rauf Əliyev, Salyan Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov, deputatlar Jalə Əhmədova, Arzu Nağıyev, Sabir Hacıyev və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Qeyd olunan layihə üzrə 2021-ci il ərzində respublikamızın müxtəlif bölgələrində yerli icra hakimiyyəti orqanları ilə birlikdə "Kəndlərdə idmanı inkişaf etdirək" layihəsi üzrə tədbirlər keçirilib. Bu layihə üzrə tədbirlərin respublikamızın digər bölgələrində də həyata keçirilməsi nəzərdə tutulub.



## "Barselona" "Real"ı bir futbolçu ilə qabaqlayır

Fransanın "France Football" nəşri bu ilə qədər heyətində ən çox "Qızıl top" qazanan klubların siyahısını tərtib edib.

1956-cı ildən etibarən hər il təşkil edilən sorğuda indiyə qədər 19 klubun futbolçuları bu mükafata layiq görülüb. Onlardan isə yalnız 9-nun oyunçusu 2 və daha çox "Qızıl top" tituluna yiyələnib.

**1. Barselona-12**

Luis Suares, Yohan Kroyff (2 dəfə), Xristo Stoiçkov, Rivaldo, Ronaldinyo, Lionel Messi (6)

**2. "Real Madrid" - 11**

Alfredo di Stefano (2), Raymon Kopa, Luiş Fiqu, Ronaldo, Fabio Kannavaro, Kriştiano Ronaldo (4), Luka Modriç

**3-4. "Yuventus" - 8**

Omar Sivori, Paolo Rossi, Mişel Platini (3), Roberto Baccio, Zinədin Zidan, Pavel Nedved

**3-4. "Milan" - 8**

Canni Rivera, Rud Qullit, Marko van Basten (3), Corc Vea, Andrey Şevçenko, Kaka

**5. "Bavariya" - 5**

Herd Müller, Frans Bekkenbauer (2), Karl-Haynts Rummenigge (2)

**6. "Mançester Yunayted" - 4**

Denis Lau, Bobbi Çarlton, Corc Best, Kriştiano Ronaldo

**7-9. "Dinamo", Kiev - 2**

Oleq Bloxin, İqor Belanov

**7-9. "İnter" - 2**

Lotar Matteus, Ronaldo

**7-9. "Hamburq" - 2**

Kevin Kiqan (2)



# Dünya idmanı



## Roje Federer “Top-10”luğu tərk edir



Peşəkar Tennisçilər Assosiasiyası (ATP) raket ustalarının yeni reytinq cədvəlini açıqlayacaq.

Yeni cədvəldə “Böyük dəbilqə”nin 20 qat qalibi, “tennis kralı” ləqəbini daşıyan isveçrəli Roje Federer 2017-ci ilin yanvarından bəri ilk dəfə olaraq, “Top-10”nu tərk edəcək.

Buna İndian-Uells turnirinin üçüncü mərhələsində polşalı Xubert Xurkaçın ABŞ təmsilçisi Frensis Tiyafunu (6:3, 6:2) məğlub etməsi səbəb olacaq.

Yeni cədvəldə Xurkaçın reytinq mövqeyini yaxşılaşdırması 40 yaşlı raketka ustasını ən azı 11-ci pilləyə atacaq.

## Ronaldonun 19 milyonluq avtomobili

Portuqaliya millisinin və “Mançester Yunayted” klubunun futbolçusu Kriştianu Ronaldu özünə yeni avtomobil alıb. Ulduz futbolçu qara rəngli “Bugatti Centodieci” üçün 8,5 milyon funt sterlinq (19 milyon manat) ödəyib. Avtomobildən ümumilikdə 10 ədəd istehsal edilib ki, bu da onu dünyanın ən eksklüziv və nadir modellərindən birinə çevirir.



## Çin Qran-prisi növbəti mövsümdə də təşkil olunmayacaq

Formula 1 üzrə dünya çempionatının 2022-ci il təqvimində dəyişiklik edilib. Belə ki, növbəti mövsümdə Çin Qran-prisi yer almayacaq. Şanxayda keçirilməsi planlaşdırılan yarış koronavirus pandemiyası səbəbindən baş tutmayacaq. Bu yarışın əvəzinə aprelin 24-də İtaliyada Emiliya-Romanya Qran-prisi təşkil olunacaq. Qeyd edək ki, Formula 1-də Çin Qran-prisi 2020 və 2021-ci illərdə də eyni səbəbdən ləğv olunub.

## “Cim-bom”un stadionunun adı dəyişir

“Qalatasaray” yeni sponsorla müqavilə imzalayıb. Türkiyə klubu “Timur Şehircilik Planlama AŞ” ilə əməkdaşlığa başlayıb. 5+5 il müddətinə imzalanan saziş “cimbom”a ümumilikdə 110 milyon dollar qazandıracaq. Sazişə forma və stadion adı ilə bağlı gəlirlər daxildir. “Sarı-qırmızılılar”ın stadionunun adına da əlavələr ediləcək, dəyişiklik rəsmiləşib. Bundan sonra arena “Ali Sami Yen İdman Kompleksi Nef” stadionu adlanacaq.

## Öz qapısına vurulan qola sevinən futbolçuya intizam işi açılıb

Ukrayna futbol çempionatının ikinci divizionunda çıxış edən “Kremen” klubunun üzvü Vitali Boykoya qarşı ölkənin Futbol Federasiyası tərəfindən intizam işi açılıb.

Buna səbəb oyunçunun öz komandasının qapısına vurulan qola sevinməsi olub.

Hadisə çempionatın 11-ci turu çərçivəsində “Ujqorod” və “Kremen” klubları arasındakı qarşılaşma zamanı matçın 64-cü dəqiqəsində baş verib. V.Boyko əməlini inkar edərək, etdiyi jestlərlə sevinmədiyini, əksinə qəzəbini ifadə etdiyini bəyan edib.



## Dünya rekordçusu evində qətlə yetirildi

Keniyalı atlet Aqnes Tirop dünyasını dəyişib. 26 yaşlı idmançı qarın və boyun nahiyəsində bıçaq zərbələrilə evində ölü tapılıb. Onun ölüm səbəbi ilə bağlı araşdırma aparılır. İlkin ehtimala görə, A.Tiropu həyat yoldaşı İbrahim Kipkemoi öldürüb. Artıq keniyalı atletin ölümündə şübhəli bilinən həyat yoldaşı İbrahim Kipkemoi Rotiç ölkədən qaçmağa cəhd göstərərkən saxlanılıb. O, məişət münaqişəsi zəminində dünya rekordçusu olan idmançının qətlində ittiham edilib. Onun bir müddət öncə əri ilə ayrılaraq, valideynlərinin evində yaşadığı, daim həyat yoldaşı tərəfindən təhdid edildiyi bildirilib.

Qeyd edək ki, Aqnes Tirop 2017 və 2019-cu il dünya çempionatlarında bürünc medal qazanıb. O, sentyabrda Almaniyadakı turnirdə 10 min metr məsafəyə 30 dəqiqə 1 saniyəyə qaçaraq, dünya rekordu qırıb.



olimpnews.az - sizin saytınız



Olimpiya dünyası

Baş redaktorun müavini: A.B.Şirəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168

AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.
Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir.
Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.

DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.

E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-74-19